*UOT 37.015.3*

***Yeganə Fəhrad qızı Yaqublu***
*Azərbaycan Dillər Universitetinin Biliyin qiymətləndirilməsi şöbəsinin mütəxəssisi,*
*universitetin fəlsəfə doktoru proqramı üzrə doktorantı*
*https://orcid.org/0009-0006-1484-1099*
*https://doi.org/10.69682/arti.2024.91(6).268-273*

## AİLƏNİN PSİXOLOJİ MÜHİTİ VƏ ONUN SUBYEKTLƏRİ

***Егяна Фахрад гызы Ягублу***
*специалист отдела Оценивания знаний Азербайджанского Университета Языков,*
*докторант по программе доктора философии университета*

## ПСИХОЛОГИЧЕСКАЯ СРЕДА СЕМЬИ И ЕЕ СУБЪЕКТЫ

***Yegana Fahrad Yaqublu***
*specialist of the Knowledge assessment department of the Azerbaijan University of Languages,*
*doctorial student in the program of doctor of philosophy*
*of the university*

## PSYCHOLOGICAL ENVIRONMENT OF THE FAMILY AND ITS SUBJECTS

**Xülasə.** Məqalədə qoyulan məsələlər ailənin psixoloji mühiti və onu yaradan ailə subyektləri ilə bağlıdır. Müəllif bu fikirlərini dünya mədəniyyəti ilə əlaqələndirir. Bildirir ki, hər bir insanın doğulması, böyüməsi, yaşadığı mühitin və dünyanın mədəniyyətinə qovuşmasının təməli ailədən başlanır. Övladların inkişafı, onların şəxsiyyətinin formalaşması, ailənin daşıdığı mədəniyyətlə əlaqələndirilir. Göstərilir ki, ailə hər bir cəmiyyətin ən vacib sosial institutlarından biridir. Məhz burada insan həyata hazırlanır. Burada atalıq, analıq təcrübəsi qazanır. Ailə övladlara özünün sosial-mədəni təcrübəsini ötürür. Onlarda atalıq-analıq mədəniyyəti aşılanır. Əməksevərlik və mənəvi bütövlük tərbiyə olunur. Ailə öz üzvlərini təhlükələrdən qoruyur. Ona dayaq və dəstək olur. Beləcə, ailə subyektləri arasındakı qarşılıqlı münasibətlər ailədəki psixoloji mühiti tənzimləyir. Bu səbəbdən hər kəs ailə mühitinin sağlam, müsbət və arzulanan olmasında cavabdehlik daşımalıdır. Məqalədə bu sahədə araşdırılan məsələyə etnopsixoloji və etnopedaqoji aspektdən yanaşmanın vacibliyini xatırladır.
***Açar sözlər:*** *psixoloji mühit, ailə, sosial qrup, kiçik qrup, ailə subyektləri, qarşılıqlı münasibətlər.*

**Аннотация.** Вопросы, поднятые в статье, связаны с психологической средой семьи и семейными субъектами, ее создающими. Автор связывает эти идеи с мировой культурой. Говориться, что основа рождения, роста, усвоения каждого человека культурой окружающей среды и мира начинается с семьи. Развитие детей, формирование их личности связано с культурой, которую несет семья. Показано, что семья является одним из важнейших социальных институтов любого общества. Именно здесь человека готовят к жизни. Здесь он приобретает опыт отцовства и материнства. Семья передает свой социокультурный опыт своим детям. Им прививается культура отцовства и материнства. Воспитываются трудолюбие и моральная честность. Семья защищает своих членов от опасностей. Оно поддерживает и поддерживает его. Таким образом, взаимоотношения между субъектами семьи регулируют психологическую среду в семье. Поэтому каждый должен нести ответственность за то, чтобы семейная среда была здоровой, позитивной и желательной. В статье отмечается важность подхода к исследуемому в данной области вопросу с этнопсихологической и этнопедагогической точки зрения.
***Ключевые слова:*** *психологическая среда, семья, социальная группа, малая группа, семейные субъекты, взаимоотношения*

**Abstract.** The issues raised in the article are related to the psychological environment of the family and the family subjects that create it. The author connects these ideas with world culture. He says that the

foundation of every person's birth, growth, assimilation to the culture of the environment and the world begins with the family. The development of children, the formation of their personality, is connected with the culture carried by the family. It is shown that the family is one of the most important social institutions of every society. It is here that a person is prepared for life. Here he gains the experience of fatherhood and motherhood. The family transmits its socio-cultural experience to its children. The culture of fatherhood and motherhood is inculcated in them. Hard work and moral integrity are cultivated. The family protects its members from dangers. It supports and supports him. Thus, mutual relations between family subjects regulate the psychological environment in the family. Therefore, everyone should be responsible for making the family environment healthy, positive and desirable. The article mentions the importance of approaching the issue investigated in the field from an ethnopsychological and ethnopedagogical perspective.

***Keywords:*** *psychological environment, family, social group, small group, family subjects, mutual relations.*

Ailənin tarixi inkişaf yolu uzun və mürəkkəb olub. Müasir dövrdə isə ailənin sosial funksiyaları xeyli dəyişib. Hazırda ailə dəyərləri bir çox ailədaxili münasibətlər, şəxsi maraqların müxtəlifliyi, sərvət meylləri, sosial rollar və s. ilə bağlı olaraq yeni bir məzmun almaqdadır. Buna səbəb dünyada baş verən elmi-texniki tərəqqi, qloballaşma, bütövlükdə bəşəriyyətin dinamik inkişafı və ən əsası demoqrafik problemlərdir. Buraya əhali artımı, müharibələr, xəstəliklər, iqtisadi böhranlar, iqlim dəyişikliyi və s. daxildir. Həmçinin, bu sırada yeni bazar iqtisadiyyatını, hüquqi dövlət prinsiplərini, kütləvi informasiya vasitələrinin ailə subyektlərinə təsiri kimi amilləri də sadalamaq olar. Nəticədə ailə subyektlərində istər yaşlı, istərsə də yeni nəslin nümayəndələrinə qarşı ənənələrdən fərqlənən yeni münasibət yaranır. Nəticədə ailə münasibətlərinin yeni və müasir, bəzi effektlərinə görə xoşagəlməz mənzərəsi əmələ gəlir. Belə ki, ailələrin dağılmasındakı kəmiyyət get-gedə artır. Bu amil də özlüyündə gənc ailələrdə yeni psixoloji mühit – “hamı necə, mən də elə” düşüncəsi formalaşdırır. Bu səbəbdən sosial psixologiyada bu düşüncəyə qarşı təsirli və səmərəli bir münasibətin yaradılması yolları axtarılır. Necə etmək lazımdır ki, gənclər ailə qurarkən buna məsuliyyətli yanaşsınlar. Onu dağıtmaq üçün hər hansı keçici və sadə situasiyanı bəhanə gətirib qərar verməsinlər. Əlbəttə, burada sosial psixologiya tədqiqatçılarının üzərinə düşən ən mühüm işlərdən biri gənc ailələrdə psixoloji mühitin öyrənilməsi, yaşlıların ona təsirinin müəyyən edilməsidir.

“Psixoloji mühit” anlayışı psixologiyada geniş öyrənilib. Bu anlayış altında ilk növbədə ailədaxili münasibətlər başa düşülür. Ailədaxili münasibətlərin əlverişli olması ailənin sabit emosional vəziyyətini, sabitliyini və hər bir ailə üzvünün inkişafındakı dinamikliyi təmin edir. Belə vəziyyət həm uşaqların, həm də böyüklərin əmin-amanlığı, rahatlığı və təhlükəsizliyinin təmin olunması, fiziki və mənəvi tələbatlarının ödənilməsi ilə şərtlənir. Ailədaxili münasibətlərin tədqiqində münasibət subyektləri, onların yaşı, cinsi, ailədəki statusu, sosial rolu və digər məsələlər öyrənilir. Bu zaman diqqət mərkəzində saxlanılmalı olan ən mühüm məsələ isə ailənin daşıdığı mədəniyyət və bu mədəniyyətin ailə münasibətləri ilə bağlı olan etnopsixoloji, etnopedaqoji və etnoqrafik ənənələridir.

R.İ. Əliyev ailə həyatının mühitini təsvir edərək bildirir ki, *“ailə həyatı zamanı bir sıra adət, ənənə, vərdiş formalaşır. İnsan məhz bir sıra tələbatlarını ailədə ödəyir. Bura məişət işləri, ünsiyyət tələbatı, istirahətin, asudə vaxtın təşkili daxildir. Ailə madiyyatın, anatomik-fizioloji tələbatın ödənildiyi birlikdir, məkandır”* [4, s. 71].

Sosial psixologiyada və sosial pedaqogikada “ailənin psixoloji mühiti” anlayışı onu səciyyələndirən “sosial-psixoloji mühit”, “sosial-psixoloji atmosfer”, “sosial-psixoloji vəziyyət”, “sosial inkişaf şəraiti” və s. problemlər qismində araşdırılır. Bu problemin tədqiqatçılarından B.Satir [10], Ə.S. Bayramov [2], Ə.Ə .Əlizadə [5], R.İ. Əliyev [4], H.Ə. Əlizadə [6], A.D. Kastel [12], K. Beyker, A.Y. Varqa [9] və b. Müxtəlif mədəniyyətlər üçün onun həm nəzəriyyəsini, həm də praktikasını işləyib hazırlayıblar. Biz də bu mənbələrdən çıxış edərək ailənin psixoloji mühiti və onun subyektlərini təhlil edəcəyik.

Məhz bilavasitə insan münasibətləri ilə bağlı olduğuna görədir ki, hazırda sosial psixologiyada “ailənin psixoloji iqlimi” kiçik qruplar kontekstində öyrənilir. Qrupdakı qarşılıqlı əlaqələrin açılması üçün şəxsiyyət psixologiyası, ünsiyyət və münasibətlərin psixologiyası, güzəran psixologiyası, idarəetmə psixologiyası və d. bu kimi sahələrin müddəaları üzərində təhlil

aparmalı oluruq. Bu müddəalar bizə "ailədə sosial-psixoloji iqlim" anlayışının mahiyyətini daha əhatəli, düzgün və elmi baxımdan əsaslı şəkildə izah etməyə istiqamətləndirə bilər.

Ə.S. Bayramov və Ə.Ə. Əlizadə kiçik qrupların xüsusiyyətlərini aydınlaşdıraraq qeyd edirlər ki, *"kiçik qrupların üzvləri nəinki bir-birilə müxtəlif formalarda gündəlik ünsiyyət və rabitəyə girir, bir-biri haqqında müəyyən təsəvvürə malik olur, həm də onların arasında müəyyən rəsmi və qeyri-rəsmi münasibətlər formalaşır. Başqa sözlə, onlar kontekt (təmasda olan) qruplar kimi təşəkkül tapıb inkişaf edirlər. Qarşılıqlı təsir onların alfasını və omeqasını təşkil edir. Bu xüsusiyyətlərdən heç biri böyük qruplar üçün səciyyəvi deyil*"[3, s. 134].

Ş.R. Babayeva və M.F. Həsənova sosial qruplardakı münasibətləri belə xarakterizə edirlər: *"Münasibət anlayışı, həm də ayrı-ayrı subyektlərin fərdi-psixoloji xüsusiyyətlərinin, sosial rollarının, onların yaşadığı ictimai mühitdə mövcud olan iqtisadi münasibətlərin qarşılıqlı əlaqəsini, vəhdətini də özündə ifadə edir. Fərdi-psixoloji xüsusiyyətlər, tələbatlar, davranış tərzi, aural, mənəvi, fiziki təsir, motiv və məqsədlər, yönəlişlik qarşılıqlı münasibətlərin yaranmasının əsasında durur"* [1, s. 134].

Ailə qruplarındakı psixoloji iqlimi ünsiyyət və münasibətlər şərtləndirir. Qarşılıqlı münasibətlər ailənin yaşamasına və inkişafına, ailə üzvlərinin həyat şəraitinin yaxşılaşmasına yönəlik fəaliyyətlərə yönəlik olduqda daha davamlı və səmərəli olacaqdır. Münasibətlərin insanlar arasındakı əlaqələrin yalnız zahiri deyil, həm də daxili mahiyyəti ilə bağlılığını da nəzərə alsaq, onun ailədəki mahiyyəti əhəmiyyətli dərəcədə dəyişir. Bir tərəfdən, bu münasibətlər digər sosial qruplarda olduğu kimi, insanların biri-birini anlaması və qavraması yolu ilə birgə fəaliyyət göstərmək üçün göstərdikləri səylərin birləşməsi olur. Digər tərəfdən, ailədəki insanların münasibətlərində onlar şəxsi həyati məqsədlər, ideallar, yönəlişlik, ən əsası isə qarşı cinsə və övlada mənəvi-psixoloji bağlılıqlarının intim tərəfləri cəmləşir. Həm daxili, həm də xarici amillərin qarşılıqlı təsiri insanın ailədəki münasibətlərini sabitləşdirərək buradakı sosial əlaqələrin daha da möhkəmlənməsini təmin edir.

Münasibətlərin subyektləri vardır. Ailədə onlar insan subyektləridir: ata, ana, nənə, baba, bacı, qardaş, əmi, bibi və b. Ailə subyektləri arasında özünəməxsus qarşılıqlı münasibətlər qurulur. Şəxsi təcrübəmizdən çıxış edərək onlardan bir neçəsini nümunə göstərə bilərik. Nəzərə alaq ki, ailələr müxtəlif və rəngarəngdir. Həm fərqli tərkibə, fərqli əlaqələrə, həm də fərqli məzmuna malikdir. Şərh etdiyimiz ailədaxili qarşılıqlı münasibətlərin digər tipləri də vardır.

"Ata-ana" münasibətləri. Bu münasibətlərə "ideal ailə" nəzəri ilə baxsaq, tərəflər biri-birinə sıx bağlı olur, qarşılıqlı olaraq biri-birini sevirlər. Onları biri-birinə həm cinsi tələbat, həm də ailənin daxili laylarında duran dünyagörüşü, zövq, əqidə, düşüncə tərzi və d. bu kimi mənəvi-psixoloji amillər bağlayır.

"Ata-oğul" münasibətləri. Qarşılıqlı hörmətə və etimada, gözləmələrə əsaslanır. Ata oğlun simasında ailənin gələcək qoruyucusunu, "ər kişi arxetipini", oğul isə özünə arxa, kömək, sirdaşını, "söykənə biləcəyi dağı" görür.

"Ata-qız" münasibətləri**.** Bu münasibətlərdə qızlar atadan təmənnasız qayğı, himayə olunmaq gözləyirlər. Onun yanında özlərini əmin-amanlıqda, təhlükəsiz hiss edir, hər şeydən qorunmuş vəziyyətdə yaşayırlar. Gələcək ömür yoldaşını bu obrazda təsəvvür edirlər.

"Ana-oğul" münasibətləri. Bu münasibətlərdə məzmun və ona uyğun olaraq vəzifələr dəyişir. Ana oğluna ümidlərini gerçəkləşdirəcək, ailə nəslini davam etdirəcək idol kimi yanaşır. Onu əzizləyir, qoruyur, qayğısına qalır. Əvəzində oğul da anaya oxşar hisslərlə bağlı olur. Təcrübə göstərir ki, bu bağlılıq oğlanların gələcək həyat yoldaşı seçiminə də təsir göstərir. Oğlanlar çox hallarda anaya oxşayan qızla evlənməyə üstünlük verirlər.

"Bacı-qardaş" münasibətləri. Bu münasibətlər çox zaman bərabərhüquqlu olur. Bacı və qardaş arasında uyuşma, bağlılıq, sədaqət, etibar, qarşılıqlı kömək üstünlük təşkil edir. Uşaqlıq həyatının sirlərini, valideynlərlə bağlı fikir və mövqelərini bölüşür, biri-birinə dəstək olur, narahatlıqlarını paylaşır, problemlərini birgə həll edirlər.

Bir çox ailələr yalnız ata-ana və bacı qardaşdan ibarət deyildir. Nənə-babalı, əmi-bibili ailələr də vardır. Ə.H. Əlizadə belə ailələrdə mövcud olan vəziyyəti sosial-pedaqoji baxımdan dəyərləndirir: *"Ailədə nənə-baba həmişə müdrik tərbiyəçilər olublar. Onlar uşaqları özlərinin sehirli-nağıllı dünyası, hikmətli öyüd-nəsihətləri ilə böyüdür, xalq adət-ənənələri ilə ərsəyə çatdırırlar.*

*Ailənin etnoqraqfiyası və etnopedaqogikası nənə-babanın adı ilə bağlıdır"* [6, s. 244].

Ailə subyektləri arasındakı qarşılıqlı münasibətlər "ailə rolları" əsasında tənzimlənir. Ailədə hər kəsin öz rolu olur. Ailə rollarının konkret məzmunu vardır: "kişi rolu", "qadın rolu", "qız övladı rolu", "oğlan övladı rolu" və s. R.O.Məmmədova bildirir ki, ailədə subyektlər sosial normalara xas olan rolları və statusları müəyyən edərək öz hərəkətlərini buna müvafiq qaydada nizamlayırlar. Normalar pozulduqda ailədə münaqişələr yaranır. *"Ailədaxili münaqişələr daha çox davranış və rol münaqişələrinə aid edilir. Hər ikisində şəxsiyyətdaxili münaqişələrin mənbəyi gizləndiyindən, şəxsiyyətin müxtəlif rol mövqeləri ilə ziddiyyətin əmələ gəlməsi nəticəsində rol münaqişələri yaranır"* [8, s. 16].

R.O. Məmmədova ailə münasibətlərindəki problemlərin səbəblərini araşdıraraq bu amillərə ailənin material vəziyyətinin pisləşməsini, cütlərdən biri və ya hər ikisinin professional fəaliyyətə daha çox vaxt ayırmasını, ailə üzvlərinin əlverişli işlə təmin olunmamasını, ev şəraitinin olmaması və uşaqların təhsil almalarındakı material çətinlikləri göstərir.

Tədqiqatçılar ailə münaqişələrinin həlli yolları ilə bağlı bir sıra konsultativ və terapevtik metodlar da işləyib hazırlayıblar. Daha çox məşhur olanlardan biri Virciniya Satirdir. V. Satir ailə mühiti haqqındakı fikirlərini şərh edərkən məsələyə obyektiv yanaşır: "Ailə öz üzvlərinin hər biri üçün sevgi və yaxınlıq mühiti yaratmağa, bununla da onları qəddar dünyamızda "təhlükəsizlik adası" tapa bilməməkdən yaranan narahatlıq və stressdən qorumağa çalışır. İnsan özünə inamı, sevilmək və təqdir olunmaq hissini verdiyi ailəsi üzərinə məsuliyyət qoyur. Ailənin hər bir üzvünə müstəsna təhlükəsizlik və sevgi hissi aşılamaqdan ötrü edilən bu təzyiq ailənin ağır yükünə çevrilir. Müasir ailə üçün bu mümkündürmü? Deməzdim! Ailə mümkün olan hər şeyi edir, lakin ən yaxşı halda kiçik uğurlar qazanır və bəzən səylər boşa çıxır" [10, s. 26].

V. Satir ailə terapiyasının məzmunun belə izah edir: "Terapevtlər ailəni bütövlükdə nəzərdən keçirirlər. Ağrılı simptomların yaranmasına səbəb olan, ilk baxışdan görünməyən ailə həyatının bütün tərəflərini görə bilirlər. Məlum olur ki, ən çox təsir yaradan amil ailə üzvləri ilə qarşılıqlı əlaqələrdəki münasibətlərin psixoloji xüsusiyyətləridir" [10, s. 5].

L.Ş. Əmrahlı isə ailə terapiyasındakı təcrübəsindən çıxış edərək bildirir ki, ailə mühitinin tənzimlənməsində əsas yer tutan amillərdən biri cinsi tələbatların ödənilməməsidir. Halbuki, çox zaman bu amil istər terapevtdən, istərsə də məhkəmə işçilərindən gizlədilir: "Əgər biz boşanmış ailələrin məhkəmə işlərini araşdırsaq, onların gətirdikləri əsaslar içərisində "mənim cinsi tələbatlarımı ödəmir" mövzusunda əsaslandırmaya, yəqin ki, rast gəlmərik. Halbuki, ailənin təməlində məhz bu amil durur. İkinci amil ailə cütlərinin dünyagörüşü, mənəvi dəyərləri, zövq və meyilləridir. Sosial-iqtisadi amillər yalnız bundan sonra gəlir" [7, s. 5].

Apardığımız təhlillərdən və verilən izahlardan ailənin psixoloji mühitinin üç mühüm amillə bağlılığı aydın olur (şəkil 1.).




***Şəkil 1.***

**Ailə mühitinin əlverişli edən və subyektlərin yaşaması üçün arzuolunan vəziyyət yaradan sosial-psixoloji amillər**

Birincisi: ailəni yaradan şəxslərin qarşılıqlı uyğunluğundan, onların fizioloji, psixoloji və sosial yaxınlığından, oxşarlıq və xüsusiyyətlərindən.

İkincisi: ailəni quran şəxslərin qarşılıqlı şəkildə uyğunlaşmaq istəklərindən, bunun üçün göstərdikləri səylərdən.

Üçüncüsü: ailə üzvlərinin qarşı tərəfi məmnun edəcək fəaliyyətlərə də maraq göstərməsindən, bu məqsədlə vaxt, maddiyyat ayırmasından, müsbət emosional münasibət göstərməsidən.

Bu şərtlər, əlbəttə ki, hər bir ailədə qorunmur. Həyata keçirmək mümkün olmur. Ailə subyektləri, ya bunu bacarmır, ya da bacarmaq istəmirlər. Ailələr də əsasən bu səbəblərdən dağılır. Uşaqlar atasız böyüyür, gəlinlər dul qalır. Atalar isə qurduqları yeni ailə və övladlarla əvvəlki ailənin təminatı, mənəvi borcluluq, çarəsizlik və günahkarlıq hissələri arasındakı dartışmalarla, çarpışmalarla həyatını sürmək məcburiyyətində qalır.

Prof. R.İ. Əliyev belə acılı tale yaşamamaları üçün sağlam ailə qurmağın yollarını aşağıdakı amillərdə görür və bunu gənclərə tövsiyə edir: “ailə qurmaq naminə yalan danışmayın; ailəni maddiyyata görə qurmayın; saxta gözəlliyə aldanmayın; ərinizi (arvadınızı heç vaxt aşağılamayın; ailədə xırdaçılığa getməyin; müqayisə etməkdən çəkinin; tənbəllikdən qaçın; ikinizə aid olan şeyləri başqaları ilə müzakirə etməyin” [4, s. 155-157].

Beləliklə, gəldiyimiz nəticə budur ki, ailənin əlverişli psixoloji mühiti özündə bir sıra xüsusiyyətləri ehtiva edir:

1) ailənin birliyi, onun hər bir üzvünün şəxsi inkişafının təmin edilməsi;

2) ailə üzvlərinin qarşılıqlı hörmət və saygısı, tələblərdə reallığın nəzərə alınması;

3) ailə üzvlərinin təhlükəsizliyi, ailə həyatında yaşadıqları məmnunluq hissi, ailəyə mənsub olma hissi, onun üzvü olmaqdan qürur duymaq və s.

Ailənin psixoloji mühiti və onun subyektləri haqqında apardığımız təhlilləri yekunlaşdıraraq bu qənaətə gəlirik ki, hər bir ailənin müsbət mühiti subyektlərin qarşılqılı münasibətlərindən yaranır. Bu münasibətlərə təsir göstərənlər psixoloji mühitin formalaşmasında əsas amillər kimi çıxış edir. Həmin amillər sırasında şəxsiyyətin təbii əsasındakı quruluşlar və onun sosial tərəfləri durur. Bundan başqa, ailədəki psixoloji mühit ailəni quranların bu məsələyə nə dərəcədə məsuliyyətli yanaşmasından, ailə həyatına hazırlığından, bununla bağlı təsəvvürlərindən, ailənin davamlı olmasına göstərdikləri səylərindən də asılıdır. Ən əsası odur ki, ailə quran gənc yalnız özünü deyil, bu ailənin üzvü olduğu cəmiyyətin də maraqlarını düşünməlidir. Elə hərəkət edib elə qərarlar verməlidir ki, cəmiyyətin daşıdığı dəyərləri zədələməsin. Onlara kölgə salmasın. Əksinə, ailə dəyərlərimizi yaşatsın. Onları yeniləşdirərək, möhkəmləndirərək gələcəyə daşısın.

**Problemin aktuallığı.** Ailə insan cəmiyyətinin inkişafında yaradılan ən unikal sosial birlikdir. Bu birlik bəşəriyyətin inkişafının, tərəqqisinin, mədəniyyətinin əsasında durur. Təəssüf ki, son illərdə dünyada baş verən siyasi, ictimai, ekoloji və digər problemlər ailə birliklərinə də neqativ təsir göstərməkdədir. Nəticədə ailələr dağılır və bu sahədəki statistik göstəricilər artıq hər kəsi narahat etməkdədir. Bu səbəbdən ailənin qorunmasında, davamlılığında mühüm məsələlərdən biri olan ailə mühit və onun subyektləri arasındakı qarşılıqlı münasibətlərin tənzimlənməsi məsələsi bir sıra sosial elmlərdə olduğu kimi, psixologiyada da xüsusi bir aktuallıq kəsb etməkdədir.

**Problemin yeniliyi.** Hər bir xalqın özünəməxsus mədəniyyəti vardır. Bu mədəniyyətin elementləri, yəni, dəyərlər, ənənələr, davranış stereotipləri və s. dəyişir. Digər tərəfdən, hər bir mədəniyyətin məzmunu tarixi-ictimai dövrdən də asılı olaraq da yeniləşir. Bu yeniləşmə heç də həmişə mədəniyyətlərin inkişafına və tərəqqisinə deyil, bir sıra hallarda zəifləməsinə də səbəb olur. Tədqiqatda problem məhz bu kontekstdən öyrənilərək yeni dövr mədəniyyətində ailə sübyektləri arasında yaranan yeni məzmunlu münasibətlərin öyrənilməsinə yönəldilmişdir.

**Problemin praktik əhəmiyyəti.** Tədqiqatda ailə mühitinə neqativ təsir göstərən məsələlərdən bəhs edilir. Onun subyektləri arasındakı münasibətlərə verilən tələblər aydınlaşdırılır. Bu baxımdan, tədqiqatın nəticələri ailənin sosial psixologiyası ilə məşğul olan mütəxəssislər, bu sahə ilə bağlı fənləri tədris edən müəllimlər, eləcə də sosial işçilər üçün əhəmiyyətlidir.

**Ədəbiyyat:**

1. Babayeva, Ş.R. Sosial psixologiya/ Ş.R. Babayeva, M.F. Həsənova. - Bakı: ADPU, -2018. -324 s.
2. Bayramov, Ə.S. Ailə mədəniyyəti. Ailə xoşbəxtliyin açarıdır// bax: Ə.Ə. Əlizadə, A.N. Abbasov. Ailə həyatının etika və psixologiyası. - Bakı: Maarif, -1988. - s. 155-161.
3. Bayramov, Ə.S., Əlizadə Ə.Ə. Sosial psixologiya. Dərslik. / Ə.S. Bayramov, Ə.Ə. Əlizadə. -Bakı: Qapp. Poliqraf, - 2003. - 354 s.
4. Əliyev, R.İ. Mən, atam, anam, sevgilim və övladlarım/ R.İ. Əliyev. – Bakı: ADPU-nun mətbəəsi, – 2019. – 172 s.
5. Əlizadə, Ə.Ə. Azərbaycan etnopsixologiyasına giriş / Ə.Ə. Əlizadə. - Bakı: Renessans, - 2003, - 258 s.
6. Əlizadə, H.Ə. Sosial pedaqogikanın aktual problemləri / H.Ə. Əlizadə. - Bakı: Səda, - 1998. - 342 s.
7. Əmrahlı, L.Ş. Psixokorreksiya və sosial terapiya / L.Ş. Əmrahlı. – Bakı: Müəllim, - 2003. – 445 s.
8. Məmmədova, R.O. Ailədaxili münaqişələrin kiçikyaşlı məktəblilərin psixi inkişafına təsiri: / psixologiya üzrə fəlsəfə doktoru dis. / - Bakı, - 2017. -153 s.
9. Бейкер, К. Теория семейных систем Мюррея Боуэна. / К.Бейкер, Варга А.Я._- М.: Когико - Центр, - 2022. - 496.
10. Сатир, В. Психотерапия семьи. / В. Сатир - СПб.: - Речь, - 2000. - 260 с.
11. https://www.researchgate.net/publication/277814784_Family_Systems_Murray_Bowen_Theory // Carl Rabstejnek. Family Systems & Murray Bowen Theory
12. https://dokumen.pub/qdownload/better-with-age-the-psychology-of-successful-aging-first-edition-9780190279981-u-7239797.html // A.D. Castel. The Psychology of Successful Aging. First edition, 238 p.

**E-mail:** yagubluyegana@gmail.com
**Redaksiyaya daxil olub:** 28.11.2024